# MƏMMƏDOV NƏSİR NƏSİRZADƏ
# (1907-1982)
# Dilçi

10 may 1907-ci ildə anadan olmuşdur. 1925-ci ildə orta məktəbi bitirmiş, 1928-1929-cu illərdə Zaqaf-qaziya Kommunist Universitetinə daxil olmuşdur. 3 il sonra Zaqafqaziya Kommunist Universitetini bitirərək Naxçıvan Partiya məktəbində tədris işləri müdiri olmuşdur. 1937-ci ildə Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasında dosent əvəzi vəzifəsində çalışmışdır. 1943-1945-ci illərdə C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunun direktoru olmuş, burada dilçilik kafedrasına rəhbərlik etmişdir. 1945-ci ildən yenidən BDU-nun Ümumi dilçilik kafedrasında çalışmağa başlamış, 22 il bu kafedrada dosent və professor vəzifələrində işləmişdir. 1947-ci ildə namizədlik, 1964-cü ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1967-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda Azərbaycan dilçiliyi kafedrasının müdiri olmuşdur. 1972-ci ildə yenidən BDU-nun Ümumi Dilçilik kafedrasına keçərək orada professor vəzifəsində çalışmışdır. Azərbaycanda nəzəri dilçiliyin yaradıcılarındandır. Nəzəri dilçilik sahəsindəki fəaliyyəti Azərbaycanda bu sahədə elmi fikri xeyli zənginləşdirmişdir. “Dilçiliyin əsasları”, “Dilçiliyə giriş” dərsliklərinin müəllifidir.